Xalq qəzeti .- 2025.- 18 mart (№ 59). - S.14.

Mikayıl Azaflı – 100

Dədə ozanların ustad davamçısı

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında XX əsr Azərbaycan aşıq sənətinin görkəmli nümayəndəsi Mikayıl Azaflının 100 illik yubileyinə həsr olunmuş "Aşıq sənətində milli-mənəvi dəyərlər" mövzusunda beynəlxalq elmi simpozium keçirilib.

Elmi məclisi giriş nitqi ilə açan AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli qüdrətli söz ustadı Mikayıl Azaflının həyat və yaradıcılığından danışıb, onun Azərbaycanın saz sənətinin tanınması və inkişafındakı əvəzsiz xidmətlərindən bəhs edib. O, "Konstitusiya və Suverenlik İli"ndə keçirilən tədbirin Azərbaycanın tam suverenliyi şəraitində, həm də, ümumilikdə, müstəqillik dövründə Mikayıl Azaflı sənətinin yenidən öyrənilməsi, onun irsinin daha dərindən tədqiq olunması baxımından böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb.

AMEA rəhbəri Türk dünyasında aşıq ədəbiyyatının inkişafında Azərbaycanın aparıcı yer tutduğunu söyləyərək qeyd edib ki, qədim zamanlardan bugünədək bütün inkişaf dövrlərində Azərbaycan xalqı özünün Dədə Qorqud, Aşıq Qurbani, Xəstə Qasım, Aşıq Abbas Tufarqanlı, Aşıq Pəri, Aşıq Ələsgər kimi ustad aşıqlarını yetişdirib. Aşıq sənətinin zirvəsi olan Aşıq Ələsgər öz yaradıcılığı ilə bu sənətin böyük ənənələrini layiqincə yaşadıb.

Simpoziumun davamında AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun professoru Qəzənfər Paşayev, Ərzincan Binəli Yıldırım Universitetinin professoru Əli Kafkasyalı və Almaniyadan olan tədqiqatçı aşıq Ozan Şiar Ağdaşanın məruzələri dinlənilib. Natiqlər Mikayıl Azaflı yaradıcılığının Azərbaycan mədəniyyəti üçün əhəmiyyətindən və onun aşıq sənətinə verdiyi töhfələrdən geniş söz açıblar.

Bildirilib ki, Mikayıl Azaflı böyük coşqunluqla yazıb-yaradan, aşıq sənətini inkişaf etdirən, sağlığında klassikləşən ustad aşıq olub. O, aşıq sənətinin kamil bilicisi olmaqla yanaşı, şairlik istedadı ilə də seçilib. Onun şeirlərində həyat fəlsəfəsi özünü bariz şəkildə göstərib.

Folklor İnstitutunun direktoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Hikmət Quliyev qeyd edib ki, ustad sənətkar folklorumuzun, musiqi mədəniyyətimizin yayılmasında, sevilməsində, dilimizin saf, təmiz, duzlu və şirin olmasında böyük xidmətlər göstərib. O, ustad aşığın keşməkeşli taleyi, qaçaqlıq və zindan həyatının onun yaradıcılığına da təsir etdiyini və ictimai məzmunlu, dövrdən, zamandan şikayət ruhlu şeirlərinin ortaya çıxmasına səbəb olduğunu söyləyib.

Beynəlxalq məclis 8 bölmə iclası ilə davam edib. Müzakirələrə onlayn formatda Türkiyə, Qırğızıstan, Qazaxıstan, Almaniya və digər ölkələrdən 50-dən çox alim və tədqiqatçı qatılıb.

Sonda iştirakçılara Aşıq Mikayıl Azaflı yaradıcılığına həsr olunmuş konsert proqramı təqdim olunub.

T.RÜSTƏMLİ
XQ